# QARABAĞDA ERMƏNİ EKOLOJİ VANDALİZMİNİN NƏTİCƏLƏRİ

**Afət Xəlilova**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

30 il ərzində Azərbaycanın işğal altında olan rayon, şəhər və kəndlərinin ərazisində Ermənistanın vəhşicəsinə həyata keçirdiyi ekoloji qenosid aksiyaları – ekzogen ekoloji vandalizmin ən səciyyəvi nümunəsi olub, beynəlxalq, planetar və bəşəri miqyaslı vandalizmdir. İşğal zamanı 460 növdən çox endemik yabanı ağac və kol bitkiləri, Azərbaycan Dövlətinin "Qırmızı kitab"ına daxil edilmiş heyvan və bitki növləri, 42997 hektar xüsusi mühafizə olunan təbiət əraziləri, 247352 hektar meşə sahəsi, o cümlədən 13197,5 hektar qiymətli meşə sahələri, 152 ədəd təbiət abidəsi və 5 ədəd geoloji obyekt, 7 relikt göl, şirin su ehtiyatları, su anbarları, 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən 11 şirin yeraltı su və 10 mineral su yataqları, qəsdən yandırılan meşəliklər, təbii kolluqlar, otlaq və biçənək sahələri ekoloji vandalizmin təsirinə məruz qalmışdır. Ermənilər tərəfindən qəsdən törədilmiş yanğınlar, hərbi əməliyyatlar, minalanmış sahələr, qagağan olunmuş silahlardan istifadə torpaqlarda çirklənmə, pozulma, hərbi eroziyalara, torpağın üst münbit qatının sıradan çıxmasına səbəb olmuşdur.

Hazırda Azərbaycanın 44 günlük müharibədəki şanlı qələbəsi nəticəsində işğaldan azad olunmuş ərazilərimizdə Dövlətimiz tərəfindən Ermənistanın törətdiyi ekoloji vandalizm və terrorun nəticələrini, ətraf mühitə dəyən zərəri və onun miqyasını müəyyənləşdirmək və qiymətləndirmək istiqamətində çox böyük işlər aparılır.